*https://doi.org/10.30546/114578.2025.10.4020*

# BÖYÜK VƏTƏN SEVGİSİNİN POETİK İFADƏSİ

**Qüdrət Umudlu**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/0009-0001-2991-2316*
*qumudov1957@gmail.com*

**Xülasə**

Görkəmli dilçi alim, onlarla elmi kitab müəllifi, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova eyni zamanda, müasir Azərbaycan poeziyasında özünəməxsus yeri olan istedadlı şairdir. "Mahirə Nağıqızı" imzası ilə ədəbiyyatımıza daxil olan, ötən əsrin 80-ci illərindən şeirləri mətbuatda görünən şairənin bugünə qədər iyirmiyə yaxın bədii kitabı işıq üzü görmüşdür.

Mahirə Nağıqızının poetik yaradıcılığı mövzu baxımından çoxçeşidli və əlvandır. Onun ən çox müraciət etdiyi mövzulardan biri Vətən mövzusudur. "Vətən" və "Ana" mövzusu şairin üz tutduğu, üstün saydığı – baş mövzulardandır.

Vurğulamaq lazımdır ki, Mahirə xanımın vətənpərvərlik eşqi ilə qələmə aldığı bir sıra şeirləri Azərbaycan ədəbiyyatında bu mövzuda yazılmış ən uğurlu şeirlərdən sayıla bilər. Bunu da qeyd etmək vacibdir ki, şairənin üz tutduğu mövzular, o cümlədən vətənə həsr etdiyi poetik nümunələrdəki ülvi hiss və duyğular öz bəşəri mahiyyəti ilə də seçilir.

**Açar sözlər:** Mahirə Nağıqızı, dilçi alim, şair, vətən, mövzu, poeziya, sevgi.

# THE POETIC EXPRESSION OF GREAT LOVE FOR THE HOMELAND

**Gudrat Umudlu**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Prominent linguist, author of dozens of scientific books, doctor of philological sciences, professor Mahira Huseynova is also a talented poet who has a special place in modern Azerbaijani poetry. The poetess, whose poems have appeared in the press since the 80s of the last century, entered our literature

under the signature of "Mahira Naghigizi", and so far, about twenty fiction books have been published.

Mahira Naghigizi's poetic creativity is diverse and elegant in terms of subject matter. One of the topics she addresses most often is the theme of the Motherland. The subject of "Homeland" and "Mother" is one of the main topics addressed by the poet.

It should be emphasized that a number of poems written by Mahira khanum with patriotic love can be considered among the most successful poems written on this topic in Azerbaijani literature. It is also important to note that the themes she addresses − including her poetic tributes to the homeland − are distinguished by their profound, universal emotional and spiritual depth.

**Key words:** Mahira Naghigizi, linguist, poet, homeland, theme, poetry, love.

## ПОЭТИЧЕСКОЕ ВЫРАЖЕНИЕ ВЕЛИКОЙ ЛЮБВИ К РОДИНЕ

**Гудрет Умудлу**

*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Выдающийся лингвист, автор десятков научных трудов, доктор филологических наук, профессор Махира Гусейнова одновременно является талантливой поэтессой, занимающей особое место в современной азербайджанской поэзии. Вошедшая в литературу под псевдонимом «Махира Нагиkызы», она начала публиковать свои стихи в прессе с 80-х годов прошлого века. На сегодняшний день ею издано около двадцати художественных книг.

Поэтическое творчество Махиры Нагиkызы отличается тематическим многообразием и яркостью. Одной из самых часто поднимаемых ею тем является тема Родины. Темы «Родина» и «Мать» занимают центральное место в её поэзии и являются для неё особенно значимыми. Следует подчеркнуть, что ряд стихотворений Махиры ханум, написанных с чувством глубокой патриотической любви, можно отнести к числу наиболее удачных произведений азербайджанской литературы на эту тему. Важно также отметить, что темы, к которым обращается поэтесса, включая посвящённые Родине поэтические образцы, выделяются своей

возвышенной эмоциональностью и универсальным, гуманистическим содержанием.

**Ключевые слова:** Махира Нагикызы, лингвист, поэтесса, Родина, тема, поэзия, любовь.

## Giriş/Introduction

"Mahirə Hüseynova – Nağıqızı" – bu imza bizə nə deyir, kimi nişan verir, hansı informativ yükü daşıyır?! Suala geniş arayış və təfərrüatlı cavab verəsi olsaq, yəqin ki, təqdim, təhlil və təqdir xarakterli yazılacaq material ən azı sanballı monoqrafik bir kitabı ortaya qoymuş olar. Qısaca ümumiləşdirəsi olsaq, bunu qeyd edə bilərik ki, Azərbaycan dilçiliyinə, eləcə də "türkologiya" adlanan qlobal elm sahəsinə mühüm töhvələr verən görkəmli linqvist alim, istedadlı şair və ictimai xadim kimi tanınan Mahirə Hüseynova – Nağıqızı 30-a yaxın elmi kitabın (monoqrafiya, dərs vəsaiti, metodik vəsait və s.), 18 şeirlər kitabının, bir sıra publisistik yazıların, maraqlı hekayələrin müəllifidir. Alimin 300-dən çox elmi məqaləsi Azərbaycanda və onun hüdudlarından kənarda nüfuzlu orqanlarda çap edilmişdir. Onun bu günə qədər işıq üzü görmüş kitablarına (həm elmi, həm bədii) həsr olunmuş (mütəxəssis müəlliflər və tənqidçilər tərəfindən yazılmış) rəylərin, resenziya xarakterli məqalələrin sayı da az olmayıb, bir neçə yüz civarındadır

Görkəmli dilçi alim, nüfuzlu türkoloq Mahirə Hüseynova və ya şair Mahirə Nağıqızıdan, onun elmi-pedaqoji və ədəbi fəaliyyətindən çox yazılıb. Onlarla nüfuzlu elm adamı, ictimai xadim, tənqidçi onun elmi və ədəbi yaradıcılığı barəsində reallığı ehtiva edən, öz müsbət dəyəri ilə diqqət çəkən fikirlər sərgiləmişdir. Akademik İsa Həbibbəyli yazır: "*Mahirə xanım Azərbaycan qadınlığının mənavi bütövlüyünü yaşatmağın və onu hər addımda möhkəmlətməyin nümunəsini göstərir*" [Hüeynova, 2023]. Bu, həqiqətən, belədir: Mahirə xanım, artıq həm elmimizdə, həm müasir poeziyamızda, həm də ictimai həyatda nəzərəçarpan fiqura, bir nümunəyə − örnəyə dönmüş şəxsiyyətdir.

Bu məqamda əsas məramımız Mahirə Nağıqızının poetik düşüncə çeşməsindən süzülən, qəlbləri riqqətə gətirən, dupduru siqləti ilə ürəyə yatan şeirlərindən, daha dəqiqi, onun poetik dünyasının mövzu dairəsində üstünlük təşkil edən "Vətən" mövzulu şeirlərindən qısaca bəhs açmaqdan ibarətdir.

Mahirə üçün ana qucağından, ata ocağından başlanan, "ulu Dərələyəz"dən, "nəqşi-cahan Naxçıvandan" yol alıb genişləndikcə genişlənən Vətən − əlli milyonluq türkün "məskəni" və "mədfəni" olan bütöv – Böyük Azərbaycandır.

Alovlu türkçü olduğunu unutmadan qərara gəlmək olar ki, Mahirə Nağıqızı üçün vətən sərhədləri bir neçə qitəni çevrələyən böyük Turandır. Bəli, onun şeirlərini, hədsiz vətən sevgisi ilə döyünən qəlbindən qopub kağıza səpələnən misraları oxuduqda qəti tərzdə yəqin edirsən ki, Mahirə sözün ən ülvi, qudsal mənasında, qeyri-adi vətənpərvər bir vətəndaşdır. Mahirə Nağıqızı üçün:

*Hər şeydən baş – Vətəndir,*
*Bir parça daş vətəndir.*
*Anaya qızı pasiban,*
*Bacıya qardaş – Vətəndir.*

Vətənsiz özünü yox, heç sayan şair bir çox şeirlərində, o cümlədən bayatılarında "Vətən" – deyir, vətəni səsləyir:

*Sinəmdə oxum Vətən,*
*Gecələr yuxum Vətən,*
*Mənsiz də otun bitər,*
*Mən sənsiz yoxam, Vətən!*

Şair Mahirənin poetik cümlələlərinin "Əzəl mübtədası" və baş xitabı, əsasən, iki müqəddəs sözdür: "Vətən" və "Ana"... şeirlərini oxuyub içindən keçirəndə bunu da anlayırsan ki, Vətən onun üçün döşündən süd əmdiyi ana qucağı, közünə qızındığı, istisindən, halal ruzisindən güc və enerji alıb böyüdüyü ata ocağı, təlim-tərbiyəsi ilə həyata baxışını formalaşdıran doğma məktəbi, seyrinə çıxıb tamaşasına durduğu dağlar, dərələr, düzənlər, məhəbbətlə seyrinə daldığı doğma yurdun sirli-sehrli təbiətidir. Vətən onun üçün "ruhuna beşik" olan ana yurdu, eyni məqamda əzizləri, doğmaları, uşaqlıq və gənclik illərində təmasda olduğu ellilәri, daha sonra həyatını həsr etdiyi bütün soydaşları – milləti, çox sevdiyi və onu sevən qeyrətli Azərbaycan övladlarıdır. O, məcazlarla süslənmiş "Vətəndir" rədifli qoşmasında əbəs söyləmir:

*Bu vətən deyilən torpaq deyil ki,*
*Anamın dizinin yanı – vətəndir.*
*Başını qoymağa bir sinə varsa,*
*Ruhuma bişiksə, tanı, vətəndir.*

*Dünyanın sirri bir, sualları çox,*
*Boy verən nə qədər... cavab verən yox.*
*Oğlunun, qızının gözü-könlü tox,*
*Bir ümid yerinin canı vətəndir.*

Şeirdə şairin məsləki, vətənlə bağlı ən ümdə ülvi hiss və duyğuları, bəşəri kredosu, vətənin xidmətkarı olmaq arzusu sənətkarlıqla poetik üslubda əyan olur. Zatən, ana südü, ata nəsihəti ilə cisminə və ruhuna hopmuş yaxşılıq hissi, duyğusal, insanları − dünyanı sevən, xəmiri humanizmlə mayalanmış M.Nağıqızının vətənə münasibəti, məhəbbəti adi deyil, müqayisəyəgəlməz ölçüdədir:

*Qurduğun dünyanın hər daşı – vətən,*
*Ömrünün – gününün yoldaşı – vətən.*
*Mahirə, demədi qəm daşı vətən,*
*Dərmanın hardadır, hanı – vətəndir.*

Mahirə xanım Vətən torpağının hər bir guşəsini, elini, mahalını gəzib görməyi, seyr etməyi çox xoşlayır. Etdiyi səfərlər yeni-yeni şeirlərin doğulmasına səbəb olur. Təhsil aldığı ali məktəb, oxuduğu qalaq – qalaq kitablar vətəninə, millətinə olan sevgisinin özəyini, nüvəsini formalaşdırsa da, onun bu məhəbbətini ətə-cana gətirən gəzib tamaşa etdiyi gözəlliklər, ruha qida verən hava və su, dadlı nemətlər, bir də insanların ülfəti olmuşdur. Onun vətən sevgisi bitib-tükənməyən, yaşadıqca, yaşının üzərinə yaş gəldikcə alovlanan sevgidir:

*Bitər sərhədlərin bu yer üzündə,*
*Qəlbimdə sərhədin nədən bitmədi?*
*Gəmisən üzürsən eşq dənizində,*
*Sənə məhəbbətim, Vətən bitmədi.*

Ümumiyyətlə, Mahirə Nağıqızının sevgi dünyası çox böyük və genişdir. Dünyanın özü boyda, bəlkə ondan da böyükdür. Ürəyində və düşüncəsində Vətən sevgisinin konturları hüdudsuzdur. Qəlbinə sığmayan sevgisi bəzən narahatçılıq da keçirir. Vətənin natamamlığı, ikiyə bölünmüş olması, bır sıra torpaqlarımızın keçmişdə baş verən ədalətsizlik ucbatından başqa dövlətlərin tərkibində qalması onun qəlbinə toxunur. Vətəninin bütövlüyünü görmək ən böyük arzusudur. Onda gələcəkdə bütövlüyün təmin olunacağına inam vardır və bu inam, əminlik böyükdür. Ölkəmizin salamatlığı, hürr içində − əmin-amanlıqda olması, insanların xoşbəxtliyi onun üçün hər şeydən irəlidir. Vətən sarıdan xatircəm olanda onun ürəyi sanki rahatlıq tapır.

*Əlimin qabarı, alnımın təri,*
*Köksünə atdığım bircə dən olsun.*
*Canımı verərəm səndən ötəri,*
*Ruhum sağlığından xətircəm olsun!*

Vətənimizin coğrafi mövqeyi, misilsiz zənginliyi – Yaradanın bəxş etdiyi təbii sərvətləri acgöz düşmən nəzərlərini, yad nəfsləri daim özünə cəlb etmiş, bu zənginlik bəzən onun baş bəlasına dönmüşdür. Taleyin son iki əsrdə bizə ürcah etdiyi baş bəlasından biri bu gün özlərini özgəsinin adı ilə "erməni" adlandıran hay gənəsidir ki, onların da ipini tutan, neçə əsrdir ki, sərvətlərimizə susayan rus imperiyasıdır. Sümürgən imperiyanın zorla əzəli torpaqlarımızda yerləşdirib dövlət elədiyi həmin gənələr – xəyanətkar toplum torpaqlarımıza gəldikləri gündən biz türklərə müsəllət olmuşlar. Haylar xaltalarının ipini əlində saxlayan imperiyanın fitnəsi və dəstəyi ilə 1988-ci ildən başlayaraq Qərbi Azərbaycan torpaqlarından iki yüz mindən artıq soydaşımızı deportasiya etdilər. Ardınca, separatçı erməni dəstələri 4-cü rus ordusunun köməyi ilə gözəl Qarabağımızı işğal edərək qırğınlar törətdi, daha səkkiz yüz minə yaxın insanı öz yurd-yuvalarından qovdular. Xalqımız isə torpaqlarımızın işğal altında qalması ilə heç cür barışa bilmirdi. Nəhayət Ali Baş Komandanın güclü siyasi iradəsi və hərbi bacarığı və müdrik strateji rəhbərliyi, Azərbaycan əsgərinin sarsılmaz əzmi, mətanəti sayəsində 44 günlük Vətən müharibəsi ilə dünya hərb tarixində görünməmiş sürət və hərbi fəallıqla işğalda olan 20 faiz torpağımız azad edildi. 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatı ilə ölkəmizin suverenliyi bərpa edildi.

Yuxarıda qeyd olunduğu kimi, olduqca vətənpərvər təbiətə, xarakterə, mənəviyyata malik Mahirə Nağıqızı da ömrünün otuz ilini çox narahat yaşadı, işğalla barışmadı, bəlkə, "vətənin yaralarına məlhəm olar", − deyə yaş axıtdı, qələmini silaha çevirərək üsyan etdi, döyüşdü. Mahirə xanım müasir Azərbaycanın müdrik sərkərdəsinə − Ali Baş Komandan İlham Əliyevə inanır, ölkəmizin hər cəhətdən inkişaf və yüksəlişinə güvənir, şanlı ordumuzun zəfər çalaçağı günü gözləyir, Vətənə üz tutaraq inamını belə ifadə edirdi:

*Qan axan yarana gözüm yaşını,*
*Dərman əvəziydi, səpələdim mən,*
*Bu da bir sınaqdı, əymə başını,*
*Sınıq əhvalına dözə bilmərəm..*

*Düşmən tapdığında qalmaz bir qarış,*
*Onlarsız yaşamaq dan olar bizə*
*Danış olanlardan, bizə sən danış,*
*Əmrini verəcək komandan bizə.*

Yaxud bizə dost olmayan kənar xalqların tənəsini, ermənipərəstlərin ironik atmacalarını bütün qeyrətli soydaşlarımız kimi başı götürməyən, zamanı gələndə

onların tutarlı zəfər silləsi ilə susdurulacaqlarına inanan şairin Azərbaycan ordusunun, Koroğlu ərdəmli əsgərimizin çalacağı qələbəyə, düşməni torpaqlarımızdan qovub çıxaracağı günə əminliyini poetik tərzdə ifadə edən "Get" rədifli şeirində oxuyuruq:

*Bərkiyibsən tənə, qınaq sınağında,*
*Get, qalmayaq bu dünyanın qınağında.*
*Özü seçib, boğulsun qan çanağında,*
*Tarix yarat, kitabında qalmağa get!*

*Komandanım özü verib dəyər sənə,*
*O güvəndi, arxalandı, ey ər sənə.*
*Milyonların gözü baxır, əsgər, sənə,*
*Bu məqamdır, zəfərini çalmağa get!*

Mahirə xanımın, qeyd edildiyi kimi, Vətənə xitabən qələmə aldığı tribun şeirləri, onun füsunkar gözəlliyini vəsv edən koloritli misraları, vətənpərvərlik hissini aşılayıb təlqin edən, Azərbaycan ordusunu, ona yaraşan, adıyla sinonim, keyfiyyət simvolu kimi səslənən – qəhrəmanlıq, zəfər, hünər, qeyrət və əzmkarlıq sifətlərini poetik sözün gücüylə tərənnüm edən əsərləri çoxdur. "Azərbaycan", "Vətən", "Ay vətən", "Vətən, ay vətən", "Vətəndir", "Al bayrağım", "Bayrağımız", "Ana torpaq", "Azərbaycanım", "Ana dilim", "Qayıtmayım", "Göygöl", "Danışan daşlar", "Onun daş nağılı", "Salam olsun", "Son döyüşə hazır ol", "Şəhidlər", "Şəhid nəğməsi", "Tarix yazan əsgər", "Xocalı", "Şəhid anasına məktub", "Cəbhədən məktub", "Xudayar Yusifzadəyə", "Şuşa məscidində azan", vətən bayatıları, daha neçə-neçə şeir buna nümunədir.

Bu tipli şeirlərində Mahirə Nağıqızının lirik "Mən"i bütöv Azərbaycan həsrəti ilə yaşayır. O, xəyanət görəndə, dəfələrlə düşmənin qansızlıq, vəhşilik törətdiyini biləndə hiddətlənir, düşmənlərə nifrin dolu bəddualar edir. İtirilmiş torpaqlar üçün, Xocalı və ona bənzər qətliam hadisələrinə görə göz yaşı tökür, ağı deyib, bayatı çağırır... Vətənin xoş növrağına, "Xarı bülbül"lü vətən gülüstanına tamaşa edərkən, gözəl Qarabağda, Şərqi Zəngəzurda quruculuq işlərini, qurub-yaradan soydaşlarımızın üzlərindəki sevinci, inkişaf – tərəqqi edən Vətənimizin xoş gününü gördükdə isə təsvirə gəlməz dərəcədə fərəhlənir, ovqatı köklənib şənlik nəğməsi oxuyur.

Onun poeziyasında bir məqam da diqqət çəkir: ara-sıra xarici ölkələrdə işgüzar səfərlərdə, elmi ezamiyyətlərdə olan Mahirə xanım vətənsiz – ondan kənarda çox qala bilmir, qürbət ellər, adlı-sanlı şəhərləri nə qədər gözəl,

valehedici olmasından asılı olmayaraq, qısa müddət sonra doğma yurdun havası, suyu, dağı-daşı, doğma insanların sıcaq münasibəti üçün darıxır, burnunun ucu göynəyir. Ürəyi nanə yarpağı kimi əsir. "Ay vətən" şeirində olduğu kimi...

*Ay vətən, bir səndən savayı, vallah,*
*Baş qoyub yatmağa bina görmədim.*
*Havasını udduğum, ay qərib ellər.*
*Vətən havasını, qına, görmədim.*

Gəzib gördüyü qürbət ellərin gözə xoş gələn füsünkarlığını, böyük, adlı-sanlı şəhərlərin, tarixi yerlərinin maraq kəsb edən cazibərdarlığını, memarlıq abidələrinin gözəlliklərini etiraf edərək, təəssüratını bədii boyalarla şeirə çevirən şairə onların heç birini vətəninə tay tuta bilmir:

*Ağaclar heyrətdi, nazlıdı kollar,*
*Deyərsən Allahdı yaradıb nə var.*
*Möcüzə körpülər, möcüzə yollar,*
*Ürəyim harasa qona, görmədim.*

İnsanı heyrətdə qoyan, nəzərə xoş gəlib, diqqəti cəlb edən zahiri gözəlliklərinə rəğmən, qürbət onu isitmir, qəlbinin həsrətini ovundura, ruhunu sərinlədə bilmir. Vətənin qayasında mamır, "bagrında" (yamacında) bitən balaca bir kol olub, qoynunda yer almaq onun üçün ən böyük səadət, bəlkə cənnətdən də üstündür:

*Cənnətdə olsam da, çəkdiyim sitəm,*
*Balaca kol olub bağrında bitəm.*
*Dərdimi kimlərə dedim, ay Vətən,*
*Sənintək halıma yana, görmədim.*

*Dörd yanım zər-ziba, gövhər olsa da,*
*Sıxıldım düz-dünya ənbər olsa da.*
*Daddığım tikələr cövhər olsa da,*
*Hopa ürəyimə, cana-görmədim.*

Son yüzilliklərdə elm və mədəniyyətdə Şərqə nisbətən daha çox tərəqqidə olmuş, xariqələrə nail olmuş Qərb ölkələrində insanlar nə qədər mədəni, nəzakətli olsalar da, o mühitin mədəni səviyyə və davranışları belə, könül quşu daim Vətənə sarı meyl edən Mahirəni ovundurmur.

*Dünya qu tükündən yastığa dönsə,*
*Sənin dizlərindən, ana, görmədim!*

deyən həssas şair ürəyi əsl cənnəti anasının dizinə baş qoyanda, rahatlığa qərq olanda tapır. Başqa sözlə, vətənə dönməklə bir daha "imana, dinə" gəlmiş olur.

**Nəticə/Conclusion**

Mahirə Nağıqızının poeziyası bir az da lal, dərin su hövzəsinə, sakit axan bol sulu nəhrə bənzəyir, oxucunu cəzb edir. Ona giriş edirsən, vardıqca, qərq olursan, ondan çıxmaq, sahilə dönmək, az qala mümkünsüz olur. Biz də indi bu halı yaşayırıq. Bu dərin poeziyanın "Vətən" qolu da dərindən dərin olub adama boy vermir. Məhz bu səbəbdən, indilik olsa-olsa, həmin dəryanın kənara yaxın yerlərində dolaşa bildik.

Şeir-sənət mülkündə özünəməxsus, başqasına bənzəməyən bir saray ucaltmış, qəlbi axar bulaq kimi ilhamla, yaradıcılıq eşqilə döyünən Mahirə xanıma möhkəm cansağlığı, yeni-yeni elmi və bədii yaradıcılıq uğurları arzusu və diləyi ilə, − hələlik bu qədər...

## ƏDƏBİYYAT/REFERENCES

1. Hüseynova, M. (2023). Bir təfəkkür tərzinə fərqli baxışlar / Mahirə Hüseynova: alim və şair ömrünün detalları. − Bakı: ADPU nəşriyyatı. − 395 s.
2. Nağıqızı, M. (2015). Bayatılar və 3 şeir. − Bakı: "Apostrof". − 160 s.
3. Nağıqızı, M. (2015). Analı dünyam. Bakı: "Vətən" nəşriyyatı. − 310 s.
4. Nağıqızı, M. (2020). Salam olsun. − Bakı: ADPU nəşriyyatı.− 144 s.
5. Nağıqızı, M. (2023). Haqqa çağıran səs. − Bakı: "Vətən" nəşriyyatı. − 218 s.
6. Nağıqızı, M. (2020). Onun daş nağılı. − Bakı: ADPU nəşriyyatı. − 412 s.
7. Nağıqızı, M. (20250. Anamın kitabı. − Bakı: ADPU nəşriyyatı. − 215 s.
8. Nağıqızı, M. (2025). Mirzəlioğlunun dəftəri. − Bakı: ADPU nəşriyyatı. − 286 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *07.09.2025*
*Qəbul edilib* *28.09.2025*
*Nəşrə tövsiyə edib* *Razim Məmmədov*
*filologiya üzrə fəlsəfə doktru, dosent*